Adsız Kitab

Adsız Kitab
Bakı, “RF” Nəşriyyatı, 2026, 44 səh
Janr: *hekayə*
Naşirlər: *F.Uğur&R.Bağırov*
Korrektor: *F.Uğur*
Dizayn*: F.Uğur*

Bu, sadəcə bir kitab deyil, insanın öz daxili qaranlığı ilə üzləşməsinin səmimi və ağrılı sənədidir. Müəllif (və ya daxildəki o "Kölgə") oxucunu adların və maskaların itdiyi bir məkana dəvət edir. Burada "Bilmək" bir personaja çevrilir, zaman isə amansız bir hakimə. Gündəlik qeydlər şəklində irəliləyən mətn; sevgidən qaçışın mümkünsüzlüyünü, yalnızlığın psixologiyasını və Tanrı ilə olan o gizli bağın axtarışını mərkəzə qoyur. "Sən bu səhifələri oxuyanda məni axtarma. Mən artıq buradayam," – deyən müəllif, oxucu ilə daxili bir "mən" arasında güzgü tutur.

.

Bu kitab **“RF” nəşriyyatında** nəşr edilmişdir. **“RF” nəşriyyatının** rəsmi razılığı olmadan kitabın yaxud onun hər hansı bir hissəsinin təkrar çapı **qadağandır.**

Müəllifdən...

Söz.Bəli sözlər var lakin bu kitabın müəllifi yoxdur. Çünki adı olan hər kəs çoxdan ölüb. Qalan yalnız bir kölgədir: Sənin içində gizlənən, ən qaranlıq gecələrində ayıq qalan, ən böyük yalanını belə bilən kölgə. O kölgə səni məndən daha yaxşı tanıyır. Çünki o, boğazında düyünlənib qalan, Dilə gəlməyə cəsarət etməyən səsindir. Oxu. Bəlkə də bu kitabı elə sən özün yazmısan. Mən isə sadəcə sənin içində gizlənən kölgəyəm.

Mündəricat

Proloq 23.09.2024 ---------- 5
Salam 24.09.2024 ---------- 6
Bilmək 02.05.2025 ---------- 7
Zaman 27.05.2025 ---------- 9
Başlıq tapa bilmədim 28.05.2025 ---------- 10
Dediklərim 28.05.2025 ---------- 11
Sevgidən əsla vazkeçmə 11.06.2025 ---------- 12
Boşluq 14.06.2025 ---------- 13
Boş insanlar 17.06.2025 ---------- 14
Öyrənmək 26.06.2025 ---------- 15
Uzun hekayə 01.07.2025---------- 16
Bilməyin bilmədikləri 11.07.2025 ---------- 17
Bilmədən xoşbəxt olmaq 11.07.2025 ---------- 18
Ø 11.07.2025 ---------- 19
Yenə gəldin bura 12.07.2025 ---------- 20
Bilmək müəllim 13.07.2025 ---------- 24
Dərmanlar və mən 21.07.2025 ---------- 26
Heç özüm də bilmədən 02.08.2025 ---------- 28
Nifrət 17.08.2025 ---------- 29
Adı nə olsun 17.08.2025 ---------- 30
Dünənlə bu gün 18.08.2025 ---------- 31
Müzakirə 1. 21.08.2025 ----------31
Eyni məkan eyni hisslər 25.08.2025 ----------32
Ölüm qorxaqların qorxusu 10.09.2025----------33
ÖZ'ümə gələn mən 24.09.2025----------34
QARAQAN 25.09.2025----------35
Xoşbəxtliyi məhv etmək 06.10.2025----------36
Bilmədən edirsən hər şeyi 14.10.2025----------38
Varmı Allah görəsən 25.11.2025----------39
Epiloq 25.11.2025----------43

Proloq

Bu kitabı yazmağa başlamazdan əvvəl də bilirdim ki, Onu bitirdikdən sonra artıq eyni insan olmayacam, çünki bu səhifələrə tökdüklərim sadəcə sözlər deyil — Qanayan yaralarımın hələ qasnaq tutmamış qabığıdır. Buraya gələnlərin heç biri yalan danışmadı. Mən də danışmadım.Bəzən çox acı danışdım, bəzən həddindən artıq sərt, bəzən isə elə bil uşaq kimi ağladım, amma heç vaxt özümdən qaçmadım. Bu kitabın hələ adı yoxdur. Bəlkə də heç vaxt olmayacaq. Buna səbəb ondan ibarətdir ki, ad qoymaq bitirmək deməkdir. Mən isə hələ bitmək istəmirəm. Sən bu səhifələri oxuyanda məni axtarma. Mən artıq buradayam. Sən də buradasan. Bu kifayətdir.

Salam

Salamla mövzuya başlayırlar? Uzun-uzadı danışma, xahiş edirəm. Nə yazacağımı bir anlıq unutdum. Mövzu, əslində, tamamilə eqoist bir "Sən"dən ibarətdir. Vay… deməli, mənim bütün həyatım yalan imiş. Əlbəttə, başqa nə gözləyirdin? Bu həyat sənin düşündüyün kimi deyil, əzizim. Əgər elə olsaydı, dünya bütün balıqlar üçün su, bütün quşlar üçün isə meşə olardı, amma təəssüf ki, belə deyil. Bu gün içib bu vəziyyətə düşməyin və baş verən bütün hadisələr bir-biri ilə ziddiyyət təşkil edir. Çünki sən bunları bilə-bilə etdin və nəticələr də buna uyğun oldu. Bilirəm. Sən də bilirsən. Amma yenə də etmirsən. Problem də elə bundadır. Sən hər mövzuda beləsən. Nəsən sən, Batman? Dünyanı xilas etməyə gəlmisən? İnsan övladı belədir: Başına bir problem gəlməyincə narahat olmur. "Mənə heç nə olmaz", "mən toxunulmazam", "mən çətinlik yaşamaram" — deyə-deyə yaşayır.

Məhz bu düşüncə ilə insanlıq tarix boyu Çox böyük fəlakətlərlə üzləşib. Və bu həmişə belə olub. İndi isə anladınmı?

Həyatı sən idarə etmirsən — Həyat səni idarə edir. Bəli, doğrudan da anladım. Amma anlamaq kifayət deyil. Onu həyata keçirmək də lazımdır. Çünki indiyə qədər ciddi bir səhvlə üzləşmədiyin üçün Rahatına düşkün insanlar kimi məqsədsiz dolaşırdın. İndi isə vəziyyət dəyişib, axı çıxış yolu daralıb və peşmanlıq səni yaxalayıb. Həyat budur! Sənin arzuladığın həyat bu deyil, belə olmamalı idi, amma istəsən də sistemi poza bilməzsən. Nə qədər çalışsan da ən doğrusu tanrı ilə bir olmaqdır. Sənə aylardır, bəlkə də illərdir deyirəm: Hər şey tanrı ilə olduqda gözəlləşir. Bu vəziyyətdə sabahdan etibarən namaz qılmaq üçün səy göstərməlisən. Mən sənə bundan artıq bir söz deyə bilmərəm. Qalanı sənin vicdanına və ağlına qalır. Əgər sən başqaları kimi düşüncəsiz olsaydın, Daha çox izah edərdim, amma fərqli olduğunu bildiyim üçün Səni öz ağlınla baş-başa buraxıram. Salamat qal.

24.09.2024

Bilmək

Bilmək və yenə bilmək. “Axı yenə bu bilmək?” — deyə pıçıldadı bilmək özü-özünə. Birdən dedi:

– Axı mən hər şeyi bilirəm.

Sən hər şeyi bilənsən? – deyə bir sual eşidildi.

Və bilmək ilk dəfə anladı ki, o, hər şeyi bilmir. Çünki sənin haradan və kim tərəfindən gəldiyini bilmirdi.

Bilmək danışdı:

– Mən bilmirəm?

Bu təəccüb idi, yoxsa reallıq? Küçəyə çıxan Bilmək yol boyu heç nəyə fikir vermədi. Amma eyni zamanda hər şeyi diqqətlə analiz edirdi: Qarla örtülü dağlardan tutmuş, yolda rast gəldiyi qocaya qədər. İnsanlar sanki nəyisə axtarırdılar. Amma nə axtardıqlarını bilmirdilər. Bir yerdə oxumuşdum ki, guya insanın payına təxminən yeddi milyon qarışqa düşür. Görəsən, bu nə dərəcədə doğrudur? Halbuki Bilmək üçün bilməli olduğu bundan qat-qat çox şey var idi.

Məsələn: tanrı “Bilmək”in bu barədə kifayət qədər məlumatı var idi. Amma bir anlıq anladı ki, anlayış və məna bunlar dərk edilməli şeylərdir. İnsan sual verəndə, doğrudan da cavabı bilmək istəyirmi? İnsan bilirmi ki, insandır? Niyə heyvan deyil, insan olduğunu bilir? Niyə məhz insan?

Bir anın içində Bilmək sual verdi:

– Sən bilirsən ki, bilirsən? Bu həm maraqlı, həm də bilməli bir sual idi.

Bilmək cavab verdi:

– Ümumiyyətlə… İnsan nəyi bilir ki

Bu sualların cavabını bilmək… və bir də Bilməyin özü.

Ehtiyac. BİLMƏK (DAVAMI) Ehtiyac demişkən:

– Bu suallar ehtiyacdırmı? Yoxsa bu suallara ehtiyac var?

Ya da bu sualların cavabını bilmək ehtiyacı? Tanrı və ehtiyac. Tanrı bir ehtiyacdır, yoxsa insan tanrının ehtiyacıdır? Bilmək üçün tanrı mümkündür. Bəlkə də bu, hələlik kifayətdir. İnsan ehtiyacı o qədər mənimsəyib ki, artıq onun köləsi olduğunu hiss etmir. Həyat həqiqətdirmi? Yoxsa tanrının həqiqəti elə həyatın özüdür? “Tanrı

niyə?” sualına Bilmək belə cavab verdi:
– Çünki Tanrı hər şeyin həqiqətini özündə birləşdirir. Və bu sual da cavabsız qaldı.

02.05.2025

Zaman

Zaman bizi idarə edir. Biz zamanı yox. İnsan elə düşünür ki, bəzi şeyləri özü seçir. Amma əslində zaman seçir. Yağış yağan zaman niyə əynimizi qalın edirik çölə çıxanda? Elə bilirik ki, biz onu elə etməliyik deyə edirik. Təbii ki xeyr, bunu bizdən tələb edən zamandır. Həyat zamanın özüdür. Nəinki bizi, çox insanın gözündə böyütdüyü həyatı da zamanın özü idarə edir...

Bəzi insanlar psixologiyanı heçə sayır, amma gedib mənasızca bürclərə, fal və numerologiyaya inanır. Bu, onların öz seçimidir, amma bir şeyi inkar etmək onun mövcud olmadığı mənasına gəlmir. Zamanın mexanizmi var. Onun psixologiyası da var. İnsan düşünmək üçün belə zamana ehtiyac duyur. Ən sadə nümunə: Niyə düşünmək üçün boş vaxt axtarırıq? Çünki düşüncə də zaman istəyir. Dincəlmək, yatmaq, əylənmək, pul qazanmaq bütün bunlar birbaşa zamana müraciət etməkdir. Zaman haqqında minlərlə, bəlkə milyonlarla fərziyyə var. Məsələn: lampanı Edison kəşf edib deyirlər, amma biri deyir yox, Tesla ondan illər əvvəl öz otağında müasir lampadan istifadə edib. Bu mübahisə təxminən 200 ildir gedir. Amma bir həqiqət dəyişmir: Ən ali anlayış zamandır. Zaman özündən başqa heç nədən asılı deyil. Çünki ən ali anlayış özüdür. İnsan zamana tabe olduğunu qəbul etmək istəmir. Bəzən yaradıcı anlayışına belə toxunmaq istəmirik, amma mövzu özü bizi ora aparır.

Yaratmaq feili belə zamanın içində yaranıb. Fərqlənən insanlar, fərqli olmağı bacaranlar hər zaman zamanla birlikdə olub ayaq uydurmaq yox, birbaşa onun özü ilə. Bəlkə də biraz mənasız şeylər yazdım, amma oxuyanlara da, oxumayanlara da təşəkkür edirəm.

27.05.2025

Başlıq tapa bilmədim

Başlıq tapa bilmədim Adını qoya bilmədiyin bir şeydə nə yazmağı düşünürsən ki? Adını qoya bilmədiyin bir yazıda görəsən nə yazmaq istəyirsən?

– Bəlkə üslubunu dəyişsən?

– Üslubumda nə var ki?

– Heç nə yoxdur, boş ver, əslində gözəldir, amma bəzən ağır gəlir. Oxucu üçünmü, yoxsa özün üçünmü?

Yenə musiqi

– Yenə bu mahnı?

– Əslində gözəldir, amma burulğan kimi insanı daim içəri çəkir. Yorğun olanda daha yaxşı yazırsan.

– Səbəb?

– Çünki artıq maska taxmırsan.

Səbəb gözəl bir şeydir əslində, bax indi səbəbsizcə yazıram, ona görə də çox bərbad şeylər yazmağa başladığımın fərqindəyəm. Bu musiqi fikirləri girdab kimi içinə çəkir. Amma bu mahnı artıq çox təkrar olmağa başladı. Əlbəttə ki, əvvəlki mahnını nəzərdə tutmuram.

– Niyə yazırsan?

– Çünki susmaq ağırdır.

– Bu hissəni yarımçıq qoymayacaqsan, elə deyilmi?

– Yox. Əlbəttə ki, yox.

Mənim bildiyim sən heç kimin fikirlərini ciddiyə almazdın, nə oldu, indi dəyişməyə qərar verdin?

– Xeyr, əlbəttə ki, yenə də eyni şeyi etməyə davam edəcəyəm. Sadəcə söz gəlişi dedim. Haqlısan.

28.05.2025

Dediklərim

– Dediklərimin heç bir əhəmiyyəti yoxdurmu səncə?

– Niyə ki?

– Əslində, bir tərəfdən haqlısan. Deyilən hər sözün mütləq önəmli olması kimi bir qayda yoxdur. Amma niyə bu sualı məhz mənə verdin? Niyə məni hədəf seçdin?

– Əslində səbəbini bilirəm. Sadəcə demək istəmirəm. Çünki buna məcbur deyiləm. Məcburiyyət mənə görə dünyanın ən mənasız hissidir. Axı insan niyə özünü nəyəsə məcbur etsin ki? İntizam, əzmkarlıq, özünü sınamaq — bunlar insanın özünü yoxlamasından başqa bir şey deyil. Amma məcburiyyət tamamilə başqa bir səviyyədir. İnsan psixologiyanın sirrini anladığı an demək olar ki, hər şeyi dərk etmiş olur.

28.05.2025.

Sevgidən heç vaxt vaz keçmə

Sevgidən heç vaxt vaz keçmə. Hətta sevməkdən də vaz keçmə. Çünki hər şey sevgidən başlayır və hər şey sevgi ilə gözəlləşir. Quşlar yuvalarını sevgi ilə qurur. İnsan da həyatını elə.

– Yenə də nə yazacağını bilmədən yazırsan. Amma bir şeyə sevinirəm, bilirəm?

– Nəyə?

– Çünki artıq əvvəlki kimi "məni sevən yoxdur", "təkəm" "yanımda heç kim yoxdur, çox tənha qalmışam" demirsən.

– Bu mahnını niyə açdın ki?

– Bunu kim dedi? Sənmi, mənmi?

Hər şey sevgi ilə bağlıdır. Amma bax, dediyimi unutma: Sevgindən heç vaxt keçmə. Elə sev ki, ölüm belə sevgidən daha yüngül gəlsin. Çünki səni sən olduğun üçün sevən biri üçün ölüm belə yüngül qalır. İnsanları dəyişdirməyə çalışma. Kim gedirsə, qoy getsin. Kim qalırsa, qalsın. Hər kəsi xilas etməyə çalışma. Çünki bütün gücünü versən belə, axırda əlinə heç nə qalmaya bilər. Hər şeyi ürəkdən etmədikdən sonra heç bir faydası olmur. Zatən bu hər yerdə belə deyilmi? Lənətə gəlmiş çiçəklərə nə qədər çox su versən, bir o qədər gülürlər. Amma əl atıb qopardanda ən amansız düşmən olurlar.

Unutma: Həyat səni sevir. Sən də onu sevməlisən. Onun səni sevdiyinin ən gözəl sübutu gözəllər gözəli sevgilinin olmasıdır ki, bunun üçün tanrıya sonsuz təşəkkürlərimi bildirirəm.

11.06.2025

Boşluq

– Əslində boşluq — tam dolu mənasını verir. Ancaq bunu çox insan bilmir.

– Necə yəni doluluq mənası verir?

– Onlar iki zidd şey deyilmi?

– Elə ağlamaqla gülmək kimi. Ağlarkən gülmək, gülərkən ağlamaq. Psixologiya tək bir şey deyil. Əslində çox şeydir. Bəzən bir şorba içmək istəyirsən, amma qaşığın yoxdur. Bax, o şorba da psixologiyadır, qaşığın özü də psixologiyadır. Daha neçə-neçə şey...

– İnsan kim olmaq istəyir? Kim olmaq? Heç kim olmalıyıq? Yoxsa hər kəs kimi olmaq? Nə bilim, ana, ata, qardaş, həyat yoldaşı, dost demirəm. İnsan olmaq da demirəm. Sadəcə... kim olmaq. Keçmişdə hüngür-hüngür ağladığın bir mahnıya indi heç bir reaksiya vermirsən. Mütləq bir şeyləri itirmək lazımdırmı? İnsan bədbəxt olanda zəifləyir. Çünki insan filmlərdə göstərildiyi kimi güclü bir varlıq deyil. Əksinə, ən zəif varlıqdır.

– Yaxşı olmayacağını düşünürsən?

– Yazdığını anlayıram. Amma düşün ki, yaxşı şeylər olacaq. O motivasiya edici videolardakı kimi demirəm, demərəm də. Sadəcə səssiz ümid. Ağlamaq istəyib də ağlaya bilməmək… Ou, necə olur bu? Tam da istədiyim kimi gələn mahnı.

– Mahnı eyni mahnıdır, ancaq bu dəfə gəlişi gözəl oldu. Bu hissə bitsin, sonra dəyişərəm.

– Özünü dəyişmədikdən sonra min mahnı dəyişsən də heç nə dəyişməyəcək. Ancaq eyni şeyləri sonsuz döngüdə yaşayıb gedəcəksən. İnsan özünü unutduğu an hər şeyi itirir.

14.06.2025

Boş insanlar

– İndi sənə bunu bir az fərqli cür izah edim. Sən "hamı eyni deyil" fikri ilə niyə razılaşmırsan

– Bunun səbəbi də elə bundadır. Çünki sən də onlar kimisən və bunu qəbul etmək çətindir. Ya da bəlkə qəbul etmək istəmirsən. Düzdür, burada özümü digərlərindən üstün tutmuram, nə fərqli göstərməyə çalışıram, nə də özümü kənara çəkirəm. Sadəcə olanı deyirəm bu belədir.

– Sən deyirsən ki, hamı eyni deyil. Bəs onda niyə hamı eyni şeyləri edir? Düzdür, bu kiçik bir misaldır, amma yenə də düşündürür.

– Əgər insanlar fərqlidirsə, niyə həyat hamıdan eyni şeyləri tələb edir? Və ya niyə hamı həyatdan eyni şeyləri gözləyir? Ən əsas məsələyə gələk: sevgi, sevmək, aşiq olmaq min dənə adı var, nəsə... Sevgi mövzusunda isə hamı eynidir. Burada kimsə çıxıb "mən fərqliyəm", "mən başqayam", "mən elə deyiləm" deyə iddia edə bilməz. Əgər doğrudan da fərqli biri varsa, mən onu tanımıram. Statistikaya baxsaq, evlilik halları günbəgün artır – bunu özümdən uydurmuram. Qarşılıqsız sevgi deyilən anlayış var, bəli. Ancaq bunu da biz insanlar yaratmışıq. Əslində yoxdur.

Daha köhnə Qaraqan kimi "Sevgi yoxdur" deyərək hate etməyəcəm məqsədim o deyil, onun yaradıcılığını da çox sevirəm.

(Bu arada, burdan müəllimə salam olsun.) Uzun sözün qısası: insan ən gözəl yaşadığı hiss olan sevgidə belə qarşılıq güdürsə, mənə zəhmət olmasa kimsə gəlib deməsin ki "hamı fərqlidir", "heç kim eyni deyil". Azdan çoxdan burda olan insanlar həyatın müxtəlif yerlərindən, müxtəlif dərinliklərindən gəlmişik. Amma azca düşündükdə görürük ki, iki insan arasında mənafe ortaya girəndə qarşılıqsız heç nə ola bilməz. Bu da insanları istəsək də, istəməsək də bir-birinə bənzədir.

17.06.2025

Öyrənmək

İnsan hər gün yeni bir şey öyrənmir. Bilirsiz bu söz var ki deyirlər insan hər gün yeni bişey öyrənir. Əslində eyni şeyi fərqli zamanlarda yenidən öyrənir. Bunlar özü özlüyündə təzad təşkil edir düzdü, amma bir-birini də tamamlayır sanki. Beyindən silinməyən heç nə yox olmur. Sadəcə gizlənir. İnsan qorxduğu üçün gizlədir. Və gizlətdiyi şeydən yenə özü qorxur. Çünki səndən qorxduğu üçün gizlənir, amma o da sənin ondan qorxduğunu bilmədən gizlənir. Ən böyük güc insanın özüdür deyirlər. Amma əslində ən zəif varlıq da elə insandır. İnsan gücünü başqasında axtarır. O vaxta qədər ki, o güc əlindən alınana qədər. O vaxt anlayır ki, əslində nə qədər zəifdir. Qorxular yerini qorxan birinə verir. O qorxular ki bizim zəif olduğumuzu bizə göstərən. Qorxaq düşüncə, aciz düşüncə, zəif düşüncə... Amma insan nə edir? Gedib gic kimi "mən ölümdən qorxmuram" deyib özünü intihara atır, ya da "başqa kimsə yoxdu" deyib boşluğa düşür ordan da çıxış yoxdur. Bunu mən deyirəm sizlərə o boşluqda boğulmaqda olan biri kimi. Nə motivasiya verəcəm, nə də nəsihət. Özünüz sadəcə düşünün, amma qədərindən çox düşünmək qədərinizi dəyişir.

Qorxu həmişə pis deyil. Bəzən insanı özünə gətirir. Bu gün sevinirəm, ona görə ki, bir vaxtlar qorxduğum şeyi indi sakitcə qəbul edirəm. İlk dəfə idi ki, geri çəkilmədim. İnsanlar əsəb halını bəyənmir, çünki qarşıdakı əsəbi olanda yorulur, səbri çatmır, yola verir, qırmağa çalışır. Ən sakit insanların ən əsəbi olması onlara gülməli gəlir çünki onları başa düşmürlər. Bunun çıxış yolu var: həyatınızla insanlar arasında məsafə qoymaq. Yəni həyatınız dediyim sizin tam özünüzsüz. Özünüzü unudub başqalarını xatırlamağa çalışmayın. İnanın mənə, əbədi bildiyiniz hər şeyin bir sonu var. İnsan həyatı belə əbədi deyilsə, heç nə və heç kim əbədi deyil. Yaşayın və xoşbəxt olmağa çalışın. Özünüz üçün nə edirsizsə, bunu həm də başqaları üçün etmiş olursunuz bu fikrin tərsi mənasıdır. Özünüzə yaxşı baxın. Çünki heç kim sizə sizin gözünüzündən baxmayacaq. Nə qədər gözünüz görür, özünüzə yaxşı baxın. Həm də çox yaxşı baxın.

26.06.2025

Uzun hekayə

Bu musiqi niyə indi qarşıma çıxdı, bilmirəm. Təsadüfən rast gəldi, amma səbəbini dərk etmirəm. Sən hələ də nələr yaşadığının fərqində deyilsənmi? İnsan ümidini itirməməlidir. Əgər itirsə, yaşamağın da mənası qalmaz. Sıradan bir cümlə oldu, bilirəm. Amma indilik belə idarə edək. Dünəndən bu günə nə dəyişdi?

Bu gün onsuz keçirdiyin və vecimə almadığın ilk gün idi. Dəyişəcək şeylər dəyişmir, dəyişə bilməz. Allah istəmədikcə heç nə dəyişməz. Bəzən hər şeyi zamana buraxmaq ən doğru qərardır. Ümid hələ var. Əgər olmasaydı, onun saç *Резинкасını hələ də biləyimdə gəzdirməzdim. Mən də ümidimi itirməmişəm. Hələ də Allaha ümidim var, ona da var. Bu musiqi uşaqlığı xatırladır: 2008, köhnə evimiz, həyət, toyuqlar, torpaqda oynadığım günlər...

Anam, atam, uşaq mən. Şah əsər. O vaxtlar necə də gözəl qaçıb oynayırdıq. 2013- 2014, yeni evə köçmüşdük, anamla “Asi”ni izləyirdik... Bəzi xatirələr adamı susdurur. Nə yazacağını bilmədən yazmaq çox qəribədir. Amma yenə yazırsan. Çünki susmaq daha ağırdır.

01.07.2025

Bilməyin bilmədikləri

İnsanlardan bezmiş birini düşün. Bir vaxtlar qandan qorxan biri, indi əlini kəsəndə gülümsəyərək heç nə olmamış kimi yoluna davam edir. Son zamanlar ağlamağı bacarmır, amma başqasının ağrısına öz ağrısı qədər dözür və bunu nə üçün etdiyini bilmədən. "Mənəviyyatı güclüdür" deyib özünü və başqalarını aldadan, amma hisslərdən söz düşəndə ən sərt, ən qatı insan. Bilmir. Amma bilir. Əgər "Bilmək" bir insan olsaydı, adı yenə də Bilmək olardı. Amma o, öz adını bilmədən yaşayardı. Necə ki su öz rəngini bilmir. Axı nə qədər olar bilmək? Bəlkə də insan bilmək hissini sevdiyi üçün hər şeyin arxasınca qaçır. Kimi ağıllı olduğunu bilir, kimi dəli olduğunu bilir. Amma ağıllı öz dəliliyini, dəli isə öz ağlını bilmir.Bax, hər şey elə buradan başlayır. Ən çox bilən, əslində, heç nə bilməyəndir. "Bilmək" bir gün öz-özünə soruşur: "Mən nə bilirəm?" Anidən ağlına gəlir: Bilmək... Və beləcə bilmək, bilmək deyə küçələrdə gəzir. Bir parkda ağacın altında dincəlir, yuxuya gedir, ayılır ki hava qaralıb. Qalxıb skamyaya oturur. Və anidən bir müdrik qoca gəlir onun yanına və soruşur: "Bala, burda neyləyirsən?" "Bilmək" cavab verir: "Bilmirəm." Müdrik yenə soruşur: "Bəs niyə bilmirsən?" "Bilmək" deyir: "Bilirəm," amma nəyi bildiyini bilmir. Sizcə o nəyi bilmir? Və beləcə bilmədiklərimiz bizi biz edir. Bilmək " Kiçik bir hekayə bölüşmək istədi sizinlə. Hekayədə istifadə olunan bir hissə ki var o hansı kitabdandır sizcə?

11.07.2025

Bilmədən xoşbəxt olmaq

Baş verən hər şeyə baxmayaraq sevdiyindən vaz keçmə, bilirəm çətindir, çünki yol uzun, yol qaranlıq, yol bəzən tikanlı, amma görürəm ki sən məhz orada, o hissin içində özünü həqiqətən xoşbəxt hiss edirsən, əgər belədirsə bütün çətinliklərə, bütün qarşı çıxanlara, bütün yağışlara, bütün çovğunlara baxmayaraq davam et, insanlar həmişə olacaq, qarşı çıxanlar həmişə olacaq, amma sənin yolun sənin yolundur, bir əkinçini düşün, toxum səpir, torpağa ümid əkir, sonra yağış gəlir hamısını yuyub aparır, qar çovğun əkini pis günə salır, o əkinçi oturub deyir ayda heyif əziyyətim, amma bir gün heç gözləmədiyi anda yer altından bir cücərti çıxır, sonra bir, sonra on, sonra yüz, bağça öz istədiyindən də gözəl olur, üzü gülür, sevinir nə gözəl oldu bu, belədir ki hər nə olursa olsun ümidi itirməmək lazımdır, çünki bəzən deyirlər ən son ümid ölür, amma məndə elə deyil, düzdür sonda o da ölür amma ümidin öldüyü yerdə insan ölür lap sonda, buna imkan verməyək, sən güclüsən, bunu unutma, mən sənə inanıram, sən çox güclü bir qızsan, bacara bilməyəcəyin çox az şey var, onu da zamanı gələndə bacaracaqsan, istər indi, istər sabah, istər bir il sonra, nə dəstək, nə kömək lazım olsa bir dost kimi yanındayam bro, davam et, çünki sənin yolun hələ bitməyib.

11.07.2025

Ø

– Keçmir?
– Keçmir yox.
– Keçirə bilmirsən. Ürək…
Gözəl söz deyirlər, amma axı ürək sadəcə bir orqandır, sevgidən, ağrıdan heç nə anlamır, sadəcə qan pompalayır. Musiqi dəyişir, amma həyat dəyişmir. Çətini seçmək: sevgi, qorxu, yalan. Yazılan hər şey oxunmaq üçünmü yazılır? Bəlkə də yox, bəlkə də sadəcə yazmaq üçün. Qaranlıqda kor olmaq…
Kor olan görmür, yoxsa görmək istəmir? Ağrı asan deyil.
Üzülmək pis deyil, üzülə bilməmək isə daha ağırdır. Bir ad tapmadım. Ona görə adsız deyək. Ø.
Ø bir gün üzülməyi unudur.
Və bu, ən təhlükəli haldır – çünki üzülməyi unutmaq, özünü unutmaq deməkdir. Bəlkə də buna görə bəzi insanlar öz ağrılarını hiss etməyi dayandırır. Amma bu dayandırma əslində itirmədir.
Ø-nun susqunluğu burda bitmir.

11.07.2025

Yenə gəldin bura

– Yenə gəldin bura, nə oldu? Bağışla, olanları bilirəm, sual çox axmaq oldu. Bilirsən, amma yenə də heç nə etmirsən.
– Nə edə bilərəm ki?
Heç olmasa, nəsə etməyə cəhd göstərə bilərdin.
– Öz səhvin olan şeylərə görə məni günahlandırma, onsuz da günahlandıra bilməzsən, anladınmı?
– İndi elə olduq?
– Bəli, olduq, heç üzr istəmə.
– Yəni başqasının qızı üçün məni unutub sonra geri gəlib nə gözləyirsən?
– "Başqasının qızı" deyil o, birincisi.
– Dəyişmisənsə nə olub? Bunu demək asandır. Sən də sevmirdin sanki onu? İndi "başqasının qızı" demək nə qədər asandır ? Yoxsa hər şeyi edib sonda çılpaq qalan sənsən? Ha, nədi öz beynində bir şeylərə qalib gələ bilmirsən deyə gəlib burda artistlik edirsən ?
Ayə, beyin sən deyilsənmi, bunlara sən qalib gəlməlisən Nə oldu, susdun, cavab verə bilmirsən?
– Bax, izah edə bilərəm. Heç də elə deyil.
– Nəyi izah edəcəksən, nəyi ?
– Bax.
– Mən sənə baxmıram. Məni rahat burax.
– Hara getsən də, məndən qaça bilməyəcəksən.
– Axı səni mən seçmədim ki.
– Amma sən məni yaratdın. Mahnıda yorgunluq var. Nəysə, mövzu bu deyil.
– Nəymiş mövzu onda? Həyat mı? Yaşamaq mı? Bəli, yaşamaq. Amma necə bir yaşamaq həm də.
– Oxu Müslüm Baba.
– Dəli olmusan sən ?. Səni heç belə görməmişdim. Bax nə deyiblər, hər şeyin ilki gözəldir deyə. Səninlə nələr yaşadıq nələr.
Dəfələrlə ölümdən qayıtdıq, hər şey bitdi dedik, yenə başladı. Bircə tərk edilmək qalmışdı, onu da yaşadıq. Olsun əşşi.
– Olsun əşşi deyirsən də. Bu qədər rahat deyil.Aha, gəldi bizim mahnımız. Nazan Öncel nə deyir: məni xatırla deyir. Xatırlamaq. Ən acı verici hiss. Nə bilim indi, ona hiss deyək, ya nə deyək. Amma

bax bu mahnı belə səni artıq ağlatmır. Yəni gücdən düşdün? Yox, sadəcə yoruldum.
– Bax məndən nə istəyirsən? Onu de görüm? Pul, var dövlət, mülk? Başqa heç nəyim yoxdur artıq. Yəni istədiyin hər nədirsə, al get, xaiş edirəm.
– Dedim də sənə, istəsən də gedə bilmərəm. Çünki mən sənəm. Anla bunu artıq. Bilirəm, tək qalmaq istəyirsən. Bu saatda yatmırsan, mütləq özünə əziyyət etmək istəyirsən. Edirsən də, amma nə dəyişir ki?
– Bax, bədbin düşüncələrə qapılmıram ha. Hər zaman ümid olmalıdır. Ən ağır gələn nədir, bilirəm? Mənim özümə çəkdirdiyim acı deyil.
– Yaşananlar bro, ən ağırı odur. Aclıq filan heç vecimə də deyil. Səncə niyə həmişə ayıq qalıram artıq? Yuxu belə mənim əmrim altında deyil. Özü gəlir, özü gedir, ona bir şey deyə bilmərəm, desəm də məni eşitmir. Özü biraz kefinə düşkün biridir.
Bax, acsan və bunu bilirsən, amma yemək yemirsən. Bu üsyan kimədir ?
– Ayə sən niyə mənim ən pis vaxtımda ortaya çıxırsan ki? Bəlkə də elə olması lazım olduğu üçün belədir bro, fikir eləmə. Bax, ən yaxşı səninlə yola gedirik ha, fərq etdinmi bilmirəm. Təbii, insan ən yaxşı özü ilə yola gedir.
– Hər şeyi boş ver bro, kim gedirsə getsin, mən getmərəm. Yəni görmədiyimdən deyil, gedə bilmədiyimdən. Zatən getsəm də, yenə getmərəm ki. Çünki məni sən yaratdın, necə gedim səndən?
Hər şey pis gedə bilər, hamı gedə bilər, amma unutma ki insan özündən heç vaxt gedə bilməz, tülkü yuvası kimi düşün, axırda yenə oraya qayıdır. Sən də elə et. Elə edirsən artıq, amma iş orda ki birdən unutsan, mən həmişə burdayam bro. Biz səninlə haralara getmişik, evdən 500 kilometr uzağa, mən belə bəzən unuduram. Pis olmağa dəyməz Səni sevməyən utansın . Bax mən səni sevirəm. Həm də heç kimin sevmədiyi qədər çox. Kim gedirsə getsin, mən getmərəm, xəbərin olsun ha. Bir qarşılıq da gözləmirəm ha, bunu sən də bilirsən, bilirəm. Heç nə istəmirəm, sadəcə yaxşı ol, o mənə kifayətdir, yaxşımı?. Sözlərimi heç vaxt unutma, gündə bir dəfə günəşin yerini aya verdiyini düşünürsək, Amma bunu unutma ki biz

bizə kifayət edərik, nə etmişiksə birlikdə etmişik, qoy gedən getsin, xoş gəlmiş də xoş getsin inşaallah. Ən sonda yenə biz bizə qalırıq nə də olsa, və ən yaxşısı da o deyilmi? İkimiz həmişə birlikdəyik. Qaçar oynayırıq, kimsəyə ehtiyac duymadan belə. Bax insanlar gəlir, zamanı gələndə gedir, sən yenə sev bro, amma içində, qəlbində tut. Həm mən sənə həmişə nə deyirəm: hər zaman bir ehtimal var. Fikir eləmə səninlə olmadısa, başqasıyla olsun, amma sən xoşbəxt ol, ən nəhayətində. Zamanı gələndə o da peşman olar, geri qayıdar, kim bilir. Bilirəm, yazmağıma ehtiyac yoxdur. Bilirəm, sən onun haqqında heç pis bir şey deməzsən, xoşbəxt olsun, kifayətdir dediyini də eşidirəm içində. Ən çox da sən xoşbəxt ol, biz xoşbəxt olaq lan, daha o qədər yaşayacağımız koskoca gözəl həyat bizi qarşıda gözləyir. Sən kimləri kimləri unutdun, onu da zamanı gələndə heç tanımayacaqsan, amma zamanında hər şeyindən əl çəkən biri olsa belə. İnsan da belədir, bunun üçün var həyatda. Necə ki mövsümlər dəyişir, aylar illəri qovalayır, insanlar da eynidir. Eyni dediyim, alışmaq da asandır. Bir az çətin olan unutmaqdır, onu da bilirəm. Amma imkansız deyil ki? Elə deyi mi?. Sən nə qədər də sevirəm desən də. Bax, bilirəm, indi də çıxıb gəlsə, canını belə verərsən onun üçün, bilirəm, öhdəsindən gəlmək asan deyil. Amma olması lazım olan budursa, demək ki, olacaq. Sən ümidini itirmə, əzmli ol. Hər zaman dua et. Bir ildə olmayan, bax bir gecədə olur. Bax, sənə hər şeyin hər mənasını, hər bucağını danışdım. Bax, bilirəm, xatirələr deyilən şeylər bəzən ən amansız şeylər ola bilər. Bax, sənə ümidini itir demirəm ki, sadəcə özündə ara verdiyini düşün. Bax, özünü aldat, özünə yalan danış demirəm heç vaxt, amma olanlar üçün özünə görə bir ssenari yaşayırmış kimi düşün, hiss et yəni. Həyat davam edir bro. İnşaallah hər şey gözəl olacaq, mən buna həyatımıza gəlib-gedənlərin sayını unudacağıq, yeri gələcək kimsə olmayacaq yanımızda, kimi zaman da hamı olacaq. inanıram. Sən dim-dik dur. Güclü qalmağa çalış. Yoxsa günün birində birdən çıxıb gəldiyi zaman qarşısına necə çıxarsan... Bəli dostlar, bunu da burda yuxuya verdik. Amma həqiqətən yuxuya verdik ha yalandan deyil. Və indi o yatdı. Yenə bu bizim başımıza qaldı dostlar. Uşaqdı, başa düşürəm, sevib bir dəfə, indi bəzi şeylər ağır gəlir ona. Amma siz heç narahat olmayın, o yaxşıdır və yatır.

Və daha da yaxşı olacaq inşallah. Sizə də məsləhətim budur ki, özünüzlə belə danışarkən savaşmadan danışın. Yoxsa özünüzü qırdığınız zaman bir daha eyni ola bilmirsiniz özünüzə qarşı. Mənlik bir işiniz yoxdursa, mən də yavaş yavaş gedim. Həm bizim uşaq da yatdığı üçün mən də bir az yatım. Məlum olduğu kimi sabah məni gözəl bu qədər də çətin bir gün gözləyir. Hər kəsə bizim uşaq kimi biri qismət olsun inşaallah. İndi özümünküdür deyə demirəm, amma çox ağıllı oğlandır. Nəysə, salamat qalın dostlar. Özünüzü sevin. Getmədim ha, hələ də sizi qapı dəliyindən izləyirəm. Bəzən div kimi olmağı bacaran biri, qapı dəliyinə girəcək qədər kiçik olurmuş. Demək istədiyim odur ki, yatın artıq. Bunu saat neçədə oxuyursunuz bilmirəm, amma hər saniyə dəyərlisiniz dostlar. Gecəniz xeyrə. 😊

12.07.2025

Bilmək müəllim

Bilmək Müəllim. Bilmək müəllim. Bilmək nə zamandan müəllim olduğunu bilmirdi ya da bilirdi. Sadəcə gizləyirdi. Bəs nə zamandan bəri müəllim idi Bilmək. Bilirdi.? Bir gün səhər idi. Və bunu bilirdi Bilmək. Nə yazacağını bilmədən yazacağını bilirdi Bilmək. Görəsən küçədə gəzən zaman, nəyisə bildiyini bildi Bilmək. İnsan. Bilmək də bir insan idi? Yoxsa bir ağac yarpağı və ya maşın təkəri? Düzdü çox absurd misallar oldu. Ama o özünün nə olduğunu bilirdi? Və ya bilməli idi? Kiminə görə normal, başqa birinə görə isə anormal biri olan paradoksal bir varlıq idi Bilmək.
Bütün həyatını bilərək tərs yaşayan, doğrulara gəldikdə isə birinci öz bildiklərini daha sonra isə əsl doğruları yaşayan mı deyim edən mi deyim. Bilməyin bildiyi çox şey vardı. Bununla yanaşı da yazmalı olduğunu bildiyi şeylər də az deyildi. Bəs niyə yazmırdı? Yoxsa yazırdı? Yəqinki bir çox insan qaranlıqla Qara rəngin fərqini bilir ya da bilmir. Bunun nə önəmi var axı. Yox təbii ki önəmi var. Əgər önəmi olmasaydı bir dolu cəmiyyət boyda önəmsiz şeylər var zatən. Düzdü bilirəm biraz önəmsiz (mənasız) cümlə oldu. Ama nəticədə cümlə oldu. İnsan anlayışı, yaşı, cinsi, irqi, milləti, və.s bu kimi suallar niyə var axı? Filippində yaşayan bir dayının yaşının və ya Argentinada yeni doğulmuş uşağın cinsi mənim nəyimə lazımdır axı?
Bu zaman Bilmək dedi:
– Bəli bunlar sənə lazım olmaya bilər ama özünün nə olduğunu belə bilməyənlər üçün hər şeydən daha vacibdir nədənsə. Aha belə insan adı altında yaşayanlara da cəmiyyət adı verirlər. Görəsən bu cəmiyyəti kim kəşf edib? Yəni ifadə olaraq ayrı, məna baxımdan ayrı, yaradılış baxımdan isə lap ayrı. Mənə bunlardan sonuncusu daha cazib gəldi ki, bu da mənim bilmədiklərimdəndir. Öyrənə bilərəm mi? Bəli. Ama bunun mənim həyatımda nə kimi rolu olacaq? Borclarımı bağlanayacaq? Yoxsa son model sport maşın hədiyyə edəcək? Təbii ki heç biri, onun üçün də bəzi şeylər var ki insan bax yenə "İnsan" sadəcə düşünməklə kifayətlənməlidi. yaxşı ola bilər ki hardasa nəsə maraqlı fakt və öyrəniləsi bir məlumat bu başqa məsələ. Yoxsa ki qonşunun aralı qalmış pərdəsindən içəridə olanlan niyə maraqlı olsun ki? Mən bəzən etdiklərimi bilirəm.

Bəzənsə bilmirəm ya da bilirəm ama yenə edirəm. Bu biraz uzun məsələdi. Ama bu "İnsan" anlayışı nə etdiyini bilməməkdən savayı onu da niyə etdiyini bilmədən edir. İnsanlara görə həyat fərqlidir.
Məsələn

1) zövq (eyş-işrət)
2) həvəs (sex+ ⑧ life) bu təbii ki şərti mənada olsa da statistikanı əks etdirir.
3) istək (mənasızca bir şeyləri istəmək axtarmaq)
4) xəyal (boş boş zaman itkisi) təbii ki bu her zaman belə olmur.
5) arzulamaq (bu da hardasa istəklə eyni mənaya gəlir ama bu biraz ağıllı variantıdı)
6) görmək (bu isə hər baxdığını görmək sayılır) bunun da tam əksi var görməzdən gəlmək. Bunu da növbəti yerlərdə açıqlayacam.
7) razı salmaq (artıq bu mərhələdən sonra çətinliklər özünü göstərir)
8) irəliləmək (bu təbii ki istəyə bağlı bir şeydi ki yenə burdada istəyin rolunu görürük)
9) yarım qalmaq/çata bilməmək (burda isə həvəsin bir rolunu görmüş oluruq) Amma doğru və düzgün həvəsdən gedir söhbət
10) düşünmək (bu biraz anormal oldu bəlkə də indi hər oxuyan fərqli bişey kimi başa düşə bilər)
11) varmaq/çatmaq (kim necə deyir desin. İstəyə nail olmaq. Hansı ki yaranan həvəsin nəticəsi)
12) Son (Bu isə adından da göründüyü kimi Sonlanmaq bitmək)

Bittikdən sonra bir şey qalırmı ki?
Və ya sonra bu bütün sadalananların bir mənası qalmır? Bilmək dedi: bu lap öləcəyimizi bilə bilə yaşayırıq fikrini deyən axmaqlara oxşadı. Bu təbii haldır ki kiminsə şəxsisi üçün hazırlanmayıb ümumi bir məna daşıyır. Saydığım 12 hissəli bölməyə açıqlama vermək istərdim lakin bu zaman da oxuyanların oxumasına bir səbəb qalmazdı və bu da özü önəmsiz bir şey olardı..

13.07.2025

Dərmanlar və mən

– İndi sənin bura gəlməyinə səbəb nə oldu?
– Bilmirəm. İndi yaxşıyam, yoxsa pisəm, bilmirəm, amma elə bilirəm ki, bəzi şeyləri unutmuşam.
– Unutmağına nə səbəb oldu? Özün unutdun? Yoxsa bu dərmanla ?
Elə bilirəm dərmanla, çünki dünən ilk dəfə içdim onu və gecəni heç nəyi xatırlamadan yatdım, ən azından yadımdadır belə.
Bax, dərmanın pis olduğunu bilirəm, amma bəzən belə lazımdır. Əgər önəmsiz olsaydı, onu həkim yazmazdı.
– Əlbəttə, nə qədər qarşı çıxsam da, bəzən insan onları içməyə məcbur qalır. Bax, bu gözəl mahnıdır. Həm də onun dilindən deyilmiş kimi dinlə.
– Bax, sən mənə "bir şeyləri xatırla" ya da "unut" deyə bilməzsən. Çünki onları etməkdə mən sənin üzərində məsuliyyət daşıyıram.
Mahnı da xoşuma gəlmədi amma, nəysə. Budur şah əsər, budur könüllərin sultanı. Bir zaman ona belə demişdin yadımdadır, "könlümün sultanı" deyə. Neyse, elə-belə dedim, çox da üstündə durma.
– Ayə, artıq bu mahnı da sənə təsir etmir. Bilirəm ki, bəzi şeyləri xatırlayırsan, amma indi onların nə önəmi var elə deyilmi?
– Bəli, bəlkə də haqlısan, bu mahnı təsir etməyə də bilər, açıqçası səbəbini də bilirəm, amma demək istəmirəm. Vay, artıq hərf sayı 900 olub. Necə bacardın unutmağı, xatırlamamağı?
– Gözəl sualdır, bax o da qalsın sabaha.
– Bəli, yenə və yenidən gəldin bura. Elə bilirəm ki, nəsə düşünürsən, elə deyilmi ?
– Bəli, amma eyni şeyləri deyil.Amma belə də olmaz ki. Hər gün bir gedib bir gəlirsən. Belə yazı yazmaq olmur. Sənin yazdığın yalanla qarışmış bir mahnıdır. Nə etmək istəyirsən? Yəni düşünmək və düşünməmək, elə deyilmi? Bəli, hər şey bu ikisinin arasında olur.
– Olur ? Nə olur? Nəsə olur deyəsən.
Amma olanların məni inandırması bir az çətindir. İnsanlar niyə insandır? Məsələn bir resepti filan varmı ki, məhz belə olanda insan olur, ya da bunu edəndə, bunu etməyəndə… Elə asan da insan olmur elə deyilmi. Mən belə bilirəm. Nəysə, çox boş danışma da, davam et. Bax, davam etmək nədir əslində? Yaxşı. Bəs onu necə izah

edərsən? Ki, “O, bu, filan şey” kimi şeylər davam etməkdir deyə. Üstəlik dediklərinin də məni inandırmalıdır. Bəli, indi gələk davam etməyə ki, başlamadan davam etmək olmaz. Sənin də başladığını fərz etsək, davam etmək dediyimiz şey… İnsanın öz-özünə verdiyi əmrlərdir deyə bilirəm.Əgər o əmrlər olmasa, insan da var ola bilməz. Var olmayan biri də davam edə bilməz…

21.07.2025

Heç özüm də bilmədən

Heç özüm də bilmədən bir çox şeyi etdim. Bəzən susdum, amma susmalı olmadığım yerlərdə. Bəzən danışdım, amma sözün artıq yük olduğu anlarda. Heç özüm də bilmədən kimlərisə qırdım, kimlərindən isə uzaqlaşdım. Niyyətim bu deyildi. Amma niyyətlə nəticə həmişə eyni olmur. İnsan bəzən özünü qorumaq üçün başqasına zərər verir. Sonra da buna ad tapır: "məcbur idim". Halbuki çox vaxt sadəcə qorxmuş olur. Özündən, hisslərindən, itirəcəklərindən…

Bəlkə də qalmalı olduğum yerdən getdim, bəlkə də getməli olduğum yerdə çox qaldım. Zaman bu mövzuda heç vaxt kömək etmir. Çünki zaman yalnız baş verəni göstərir, səbəbi izah etmir. Bu gün dönüb baxanda bir şeyi aydın görürəm: Ən böyük səhvlər pis niyyətlə edilmir. Ən böyük dağıntılar yarımçıq cəsarətlə baş verir.

02.08.2025

Nifrət

İnsan sevdiyi yerdən nifrət gördüyü zaman pis birinə çevrilir. Bu həqiqətən də belədir? Bəs nifrət niyə yaranır ? Məgər sevmədiyin halda nifrət etməlisən ? Təbii ki yox. Nifrət qəfil yaranmır. O, səssiz-səmirsiz böyüyür. İçində saxladığın sözlərdən, deməyə cəsarət etmədiyin həqiqətlərdən. İnsan çox vaxt nifrət etdiyini düşünür. Amma bu nifrət deyil.Bu – incinmiş sevgidir.

Sevdiyin halda anlaşılmamaq, dəyər verdiyin halda əvəzini görməmək nifrətin toxumudur. Bax bu insanların çox axmaq qəlibləri var. Qəlib dediyim, bənzətmələr mənasında. Bu qədər-qismət işləri həqiqətən varmı səncə? Yoxsa birilərinin uydurduğu sözlərdir? Məndən soruşsan, məncə yoxdur. Çünki elə hər dediyimizin olmadığı kimi, hər istəmədiyimizin də olmamasını gözləmək axmaqlıq olar. Bilmirəm cümləni düz qura bildimmi.

Hani filan şey qismətdir deyib ağzına su alıb oturmaqla olmur axı. Təbii ki, bəzi şeylər edəndə də olmur bəzən. Necə bir axmaqlıqdır ki, insanlar hər şeyi, amma hər şeyi qismət deyib " əşşi bu da onsuz da olmayacaqdı, qismətimdə yoxmuş" deyərək axmaqca hərəkət edirlər. Nifrət güc deyil. Nifrət yorğunluqdur. Ruhun artıq daşıya bilmədiyi yükdür. Nifrət insanı azad etmir. Sadəcə hissizləşdirir. Və bir gün baxırsan ki, nifrət etdiyin şeyə çevrilmisən. Çünki elə hər dediyimizin olmadığı kimi, hər istəmədiyimizin də olmamasını gözləmək axmaqlıq olar. Bilmirəm cümləni düz qura bildim ya yox. Məsələn filan şey onsuz da qismətdir deyib ağzına su alıb oturmaqla olmur axı. Təbii ki, bəzi şeylər edəndə də olmur bəzən.

Nə işdirsə insanlar hər şeyi, amma hər şeyi qismət deyib " əşşi bu da onsuz da olmayacaqdı, qismətimdə yoxmuş" deyərək axmaqca hərəkət edirlər.

17.08.2025

Adı nə olsun ?

– Ad qoymaq çətindir Çünki ad vermək məsuliyyət deməkdir. Adsız olan azaddır. Hər cür başa düşülə bilər. Amma adı olan artıq çərçivəyə salınır. Bəlkə də heç bir adı olmasın. Axı hər şeyə ad qoymaq şərtdirmi? Bəzən ad qoyduğun anda mənanı itirirsən. Tək və gerçək dostum Mahsun deyirdi ki, sevmək zaman itkisi ola bilir. Bəli bu biraz pessimist yanaşma ola bilər. Lakin burdakı mənaya diqqətlə baxsaq həqiqət var. Belə izah edim. İnsanın bir şeyə, müəyyən bir statusa çatana qədər hər şeydən imtina etməsidir onun çatdırmaq istədiyi.

– Bu da doğrudur mu ?

– Bəli, belə yerdə çox gözəl bir sözüm var: Hər şey öz zamanında gözəldir deyə. Məhz müəyyən şeylər, həyatımıza daxil olan insanlar gəlib sonra gedirsə demək ki, zamanı deyilmiş. Bəs niyə gəlir həmən insanlar ya niyə baş verir sözü gedən hadisələr? Bu da cavabsız qalan suallarımızdan olsun. Daha sonra o deyirdi: heç kim üçün özündən vaz keçmə, heç kimi özündən çox sevmə, daima özünə fokuslan. Amma mən bunu dinləmirdim.

– Dinləyirdim əslində sadəcə o vaxtki ağlımla əməl etmirdim. Soruşsanız ki, indi edirsənmi. Nə hə deyərdim, nə də yox. Bu qədər şeyə rəğmən biz yenə də sevirik, “sevgi” deyirik, “ehtiyac” deyirik, “hər şeyim” deyirik. Sonra isə o adlar qalır, insan gedir, biz isə o adların altında əzilirik. İnsanlara ad qoyuruq, hisslərə ad qoyuruq, yaşadıqlarımıza ad qoyuruq. Ad qoyurduq, bağlanırdıq, sonra da boşluq qalırdı.. Bəlkə problem bundadır. Bəlkə də ad yox, anlamaq lazımdır. Qoy adı olmasın.Qoy sual kimi qalsın. Çünki sual çərçivə deyil, azad buraxır. Mahsunun verdiyi töhfələrdən bir neçəsini də sizlərlə bölüşüm: heç nə üçün gec deyil, özünə bax, özünə çəki-düzən ver. Burda xarici görünüşü nəzərdə tutur həmişə. Bəlkə də bütün bu ad qoymağın içində elə o səs var: Özünə qayıt.

17.08.2025

Dünənlə bu gün

Dünənlə bu gün eyni deyil.Bəzən elə gəlir ki, sadəcə tarix dəyişib. Amma əslində dəyişən insanın özüdür. Dünən dözə bildiyin şeylər bu gün ağır gəlir. Dünən susduğun yerdə bu gün danışmaq istəyirsən. İnsan zamanla dəyişmir.İnsan zamanın içində özünü tanıyır. Dünən bilmədiyini bilmirdin.Bu gün isə bildiyini daşıyırsan. Bəlkə də böyümək budur: keçmişi itirmədən bu günü daşımaq.

18.08.2025

Müzakirə 1

– Səncə doğru olan nədir?

– Hansı doğru? İnsan çox vaxt doğrunu axtardığını düşünür. Amma əslində özünü haqlı çıxarmaq istəyir.

– Bəs səhv nədir?

– Səhv, etdiyinin səhv olduğunu bildiyin halda yenə də davam etməkdir.

– Onda hamı səhv edir?.

– Nəticə etibarilə bəli lakin məna etibarilə xeyr. Çünki hamı özündən qaçır. Bilirsən susmaq çətindir. Çünki susanda özünlə üz-üzə qalırsan. Hara baxsan özünü görürsən. Başqa sözlə desək özündən qaça bilmirsən.

– Səncə çıxış yolu nədir?

– Özünü dinləmək.

Mən də əvvəllər özümü dinləmirdim. İndi isə həm özümü dinləyirəm həm də özümlə müzakirə edirəm. Bu müzakirə bitmir. Sadəcə ilk sükut elan olunur.

21.08.2025

Eyni məkan eyni hisslər

Eyni məkandır. Divarlar dəyişməyib. Amma hisslər eyni deyil.5 il öncə ilk dəfə bu kollecə qəbul olduğunu eşidən xoşbəxt bir gənc idim. Yeni dostlar, yeni mühit. Necə də gözəl bir mənzərə idi. Bir vaxtlar gülüş olan yerdə indi sükut var. Saysız hesabsız əyləncəli günlər, bir o qədər də xoş xatirələr, unudulmaz anlar... Hər zaman dostlarına kömək etməyə can atan biri olduğumu bilirəm. Etdiyim hər yaxşı əmələ,dediyim bütün xoş sözlərə görə xoşbəxt olduğumu deyə bilərəm. Belədi ki hər nə olursa olsun yenə olsa yenə edərdim. İnsan eyni yerə qayıdanda özünü tapacağını düşünür. Amma çox vaxt ordakı xatirələrini tapır. İndi bilmirəm bu zaman dilimində sizə necə təsir etmişəm, ya nə dərəcədə həyatınızda dəyərli olmuşam.Ancaq onu deyə bilərəm ki siz hər biriniz, nə qədər zaman keçir keçsin, ilk günki kimi dəyərlisiniz. Ciddən bu qədər şeyi birlikdə yaşadığımız üçün hər birinizə təşəkkür edirəm. Yaxşı ki varsınız... Deməli dəyişən məkan deyil, onu daşıyan insandır. Bunu ADNSU-nun nəzdindəki Sənaye və Texnologiya Kollecinin 2019/23-cü tədris illəri üzrə U-195 (Mühasibat Uçotu) ixtisası məzunlarına yəni bütün qrup yoldaşlarıma həsr edirəm.

25.08.2025

Ölüm. Qorxaqların qorxusu

Ölümdən qorxmaq zəiflik deyil. Əsl qorxulu olan yaşanmamış həyatdır. İnsan ən çox deyilməmiş sözlərdən, edilməmiş seçimlərdən və geriyə baxıb "kaş" deməkdən qorxur. Həqiqətən yaşamışsa, ölüm artıq onu qorxutmur. Bəzən həyat o qədər mənasız şeylərlə dolur ki, insan özünü itirir, mütləq həqiqəti axtarır, amma harda olduğunu belə bilmir. Bir çoxları "mütləq həqiqət birdir" deyib axtarır, amma mən deyirəm: mütləq həqiqət tək deyil, ən azı üçü var və hamısı eyni dərəcədə mütləqdir: Zaman (hər şeyi göstərən, mərhəmətsiz televizor kimi), Yaradıcı (dini çərçivədən kənar, sadəcə varolma və yaradılış mənasında — inananı da, inanmayanı da qəbul edən), və Həyatın özü (mənasız şeylərlə dolu olsa belə, dolmaq-da daşmaqdan gedir). Mən burda bir şəxsiyyəti misal çəkmək istəyirəm. Elxan Zeynallı, səhnə adı ilə Qaraqan. Sözü gedən həqiqətlərə çatan adam — Qaraqan — artıq özünü itirmir. Çünki Qaraqan sadəcə ad deyil, Ruhdur, Zamanın Ruhu, transsendental həqiqətdir; öz Mən-i ilə sərhədlənmir, həm fərdi, həm də ümumi cismin məhsuludur. Həyatın mənası axtarılmır — o, özü yaradılır. Bəzən insan o qədər boş şeylərlə dolur ki, "kaş" deməmək üçün özünə məna vermək məcburiyyətində qalır. Bunu isə sonda Zaman göstərir — hər şeyi olduğu kimi, dürüstcə. Ölüm bəzən xoşbəxtliyin təxminən 40%-ni özündə saxlayır kimi görünür, amma qalan 60%-i də onsuz tamamlanmır — çünki həyatın ən böyük dərsi budur: yaşamaq üçün son lazımdır, son üçün isə həqiqətən yaşamış, özünü tapmış olmaq lazımdır məhz Qaraqan kimi. Özünü sev.Həyatı sev.Özündən muğayat ol. Çünki ən böyük itki — heç vaxt başlamamış olmaqdır.

10.09.2025

Özümə gələn mən

Bir gün anladım ki, artıq qaçmıram. Özündən qaçmaq ən uzun, ən yorucu yoldur. Mən dəyişmədim, sadəcə öz yerimə qayıtdım. Özünü qəbul edən insan heç nəyi sübut etməyə çalışmır. Bu, səssiz, amma çox doğru bir addım idi. Hər şeyi geridə qoyub getsəm də, düşüncələr məni tərk etmir. Onlar hər yerdə mənimlə gəlir, məni yenə də özüylə sürükləyir, yenə də qaçmağa məcbur edir. Bəli, zəifəm – bunu qəbul edirəm. Amma zəif olduğum üçün zəif qalmalı deyiləm. Mən sadəcə rahat, azad bir həyat istəyirəm. Bu azadlıq heç kəsin məni sevməsindən, aşiq olmasından asılı deyil. Artıq " özlüyündə yaşayan" biri olmaq istəyirəm. Ən xoşbəxt anımda məni yerə vuran, sonra da əlimdən alan o ilahi qüvvə hardadır? Niyə verdiyini sonra geri alır? Bu, uşağa oyuncaq verib bir saat sonra əlindən almaq kimidir – hansı valideyn belə edər? Mərhəmət hardadır? Şübhəsiz ki mən artıq müsəlman deyiləm. Düzdü bunu deməklə böyük ehtimalla tənqid atəşinə tutula bilərəm. Lakin bunu oxuyan olsa əgər "Bir kitab yazan adamın gələ biləcək bütün tənqidlərə açıq olduğu"nu bilər. Hər şey " niyə oldu " deyirəm və səssizcə baxıram. Lakin hər zaman səssiz qalmıram. İnsanlarla danışıb onlarla bölüşmək yerinə özümlə müzakirə edirəm və bəzən yeri gəldikdə özümü mühakimə də edirəm. Ama artıq o ilk xoşbəxtliyi bir daha hiss etdirəcək heç nə yoxdur. İlk dişlə son diş arasındakı fərq kimi – eyni hisslər qayıtmır. Bəlkə üsyan edərək şansımı itirirəm. Amma gedəcəksə, niyə gəldi?. Verəcəksə, niyə aldı? Bu suallara cavab yoxdur, amma mən susmuram.Düşüncələrimi də geridə qoya bilmirəm. Şəhəri tərk etdim, əşyaları qoydum, amma o insanı, o hissi buraxmadım. O yenə gələcək. Mən ona hələ də inanıram – özümdən də çox inanıram. Qışda günəşin çıxmasını gözlədiyim kimi. Bir gün o, mənim doğan günəşim olacaq. Bəlkə özümü özümü aldadıram.Bəlkə dəli olmağın astanasındayam.. Amma bu gənc hələ də ümid edir, hələ də pozitiv düşünmək, gələcəyə addım atmaq istəyir. Kimsədən kömək ummur, sevgini belə gözləmir. Sadəcə öz-özünə xoşbəxt olmağa çalışır. Musiqilər hər dəfə onu xatırladır. Gözlərim dolur, amma ağlamıram. Bu, sevginin verdiyi əzab deyil – sadəcə düşünməkdir, xatırlamaqdır. Bəlkə o ilk xoşbəxtliyi heç

vaxt təkrar yaşamayacağam.Amma yenə də inanıram: O, gələcək. Onu sevirəm. Özümü sevirəm.Həyatı sevirəm. Özümə qarşı bu qədər sərt olmağa çalışıram. Çünki ən böyük itki – öz yerini tapmadan, özünü qəbul etmədən yaşayıb getməkdir. Bu, hələ bitməyən bir hekayədir..

24.09.2025

QARAQAN

İnsan niyə hər gördüyünü istəyir? Bir az vaxt keçəndən sonra düşünürəm ki, bu bəlkə də yaxşı bir şeyə bənzəyir. Zaman məhdudiyyəti, unutqanlıq, yorğunluq və digər amillər mane olur deyə düşünürəm. "Kastetmek" nə deməkdir?. Bu ifadənin kökü türkçədən olub bizim dilə tərcüməsi "nəyisə demək" başqa sözlə desək "nəzərdə tutmaq" mənasına da gəlir. Düzdü birinə sui-qəsd cəhdi kimi mənası da var, amma sanki başqa bir şey olmalıdır. Bənzətməkmi? Uyğunlaşdırmaqmı?. Bir dostum deyir ki, sən çox melankolik tərzdə yazırsan. O dostum da Mahsundur. İlk sualın cavabını tapdım deyəsən: İnsan bəlkə də hər gördüyünü istəmək üçün yaradılıb? Bu, əlbəttə ki, sadəcə bir nəzəriyyədir. Burda həm yaradıcılığını həm özünü həm də fikirlərini sevdiyim bir insandan söhbət açmaq istəyirəm. Elxan Zeynallı səhnə adı ilə yaddaşlarımıza həkk olunan **QARAQAN. O insanın şəxsisi haqqında çox detala girməyəcəm.Daha çox ya** Sadəcə belə bir sual vermək istəyirəm: Qaraqan (QQ) tam olaraq nəyi nəzərdə tutur? 13 Fevral tarixində paylaşılan "Sıradan Adam" trekində də dediyi kimi: sıra, sıradan, sürü, sürüdən... Mövzu "kastetmek"dən Qaraqana necə gəldi, onu da anlamadım. Bunu oxuyan bəziləri deyəcək: "Sən nəyi anladın ki, bunu da anlayasan?" Amma bax, biz özümüzə sürünün içindəyik deyirik, – bu aydındır. Bəs QARAQAN? Onun mövqeyi bizdən qat-qat üstündür. Və təbii haldır ki aramızda da böyük fərq var. Düşünürəm ki, bu fərq məhz olması lazım olduğu üçün var. Çünki hər kəs elə olacaq deyə bir qayda yoxdur. Nəysə, mövzu bu deyil. Baxın məhz düşünəndə həyat bir illüziya və sirkdir, və bu illüziyanın içində hamı eyni yaşayır. Məsələn, trafik işığında yaşıl yanan kimi hamı irəliləyir – istəmədən, ya da niyə etdiyini bilmədən. İndi eyni şeyi Qaraqan üçün desək, nəticə dəyişmir, elə deyilmi? Yoxsa dəyişir? Bu, sadəcə etdiyimiz rutin işlərdən biridir. Ancaq QARAQAN'ın bizə çatdırmaq istədiyi başqa seylər var. Onları mən də bilmirəm. Zamanı gələndə hamımız öyrənəcəyik. Bəs bizi bu sürüdən ayıran, fərqli tutan, içində olub da ayrı hiss etdirən nə ola bilər ki? Niyə məhz Qaraqan. Çünki adam bizə çox şey vəd edir və edəcək də. Anlayana böyük şeylər danışır, əlbəttə.

Amma onu ilahiləşdirmək doğru olmaz. Başqa bir şey deyim: Çalışmaq. Evindən çıxmadan, işə getmədən pul qazanmaq ayrı səviyyədir – bunu hər kəs tapa bilmir. Amma əgər üstün bir gücdən danışırıqsa ona çatanların da güclü olması lazımdır. Necəmi? Hər kəs fərqli yollarla, amma eyni şəkildə... İnsan hər gördüyünü istəyir, çünki sürüdə yaşayır – amma Qaraqan kimi fərqli olmaq, illüziyanı görüb də ondan kənara çıxmaq imkanı var. Fərq məhz buradadır. Və bu fərq, çox az insanda rast gəlinir

25.09.2025

Xoşbəxtliyi məhv etmək

Mən niyə özümü məhv edirəm? Ya məhv etməyi sevirəm, seçirəm indi hər nəysə. Xoşbəxt olmaq istəmirəm mi yoxsa Xoşbəxtliyi dərk edə bilmirəm ya da ki dərk etmək, anlamaq istəmirəm. Sonunda ölüm var deyirik də bu həyatı o zaman niyə yaşayırıq, kim üçün nə üçün yaşayırıq? Unutma Samira xanım sənə nə dedi, sən onu unuda bilməyəcəksən. Bəli amma xatırlamaq da əzab verir insana. Xatırlamağa sən özün özünü vadar edirsən. Bəsdi də məni mühakimə etdin uşaq kimi onu etdin bunu edirsən onu deyirsən falan. Sənə musiqilər heç də yaxşı təsir etmir. Səncə buna ehtiyacım varmı? Bəs sənin nəyə ehtiyacın var? Axmaq birisən yəni öz istədiyini özü belə bilməyən, niyə var olduğunu anlamayaraq yaşayan bir varlıqsan sən. Eyni şeyləri yaşayıram deyib özün özünü döngüyə salırsan və ordan da çıxmaq istəmirsən.

Daha nə qədər davam edəcəksən bunu etməyə? Ölənə qədər? Get öl onda heç kimin vecinə olmayacaqsan. Hələ sənin uğrunda özünü qurban verdiyin qızın heç vecinə olmayacaqsan. O indi sənsiz də xoşbəxtdir. Bəsdir yetər. O hələ də məni sevir bunu mən içimdə bilirəm. Sən nə qədər də desən bunu qəbul etməyəcəm. Nəinki sən heç kim desə də qəbul etməyəcəm. Bəs onda niyə Bakıdan qorxursan? Hə axmaq insan niyə? Qorxmaq deyil bu.. Bəs nədir?

Sakit qalmaq üçün uzaqlaşmaq. Yəni qorxmaq. Yox yox yox.Qulağımdaki mahnı həm xoş gəlir həm də qorxu hissi verir. Ancaq qorxu hər zaman gözəl olub. Çünki hər şeyin başında qorxu dayanır. İtirmək qorxusu, ölüm qorxusu, yarım qalmaq qorxusu və.s. Sən artıq xəbərin var mahnılarla yaşayırsan. Artıq biraz da belə getsə insan olduğunu unudacaqsan. Zatən bir çox insan unudub səni. Səncə mənə lazımdırmı o insanlar? Düzdü paxılam, qısqancam, egoistəm. Amma bu mənəm. Bax sevdim bir dəfə olmadı günah nə məndə oldu nə onda. Bəs indi nə istəyirsən hə nəəəə?

Bilmədən edirsən hər şeyi

Bilmədən edirsən hər şeyi. Görəsən niyə? Niyə bəli niyə. Bax Qaraqanın hər Trekində insan özünü tapır. Bəli, zaman nədir sizcə? İndi isə Qaraqan "Balıqların dua"sı trekinə nəzər yetirək: Yəqin ki qeyri ciddi gəlir, uzun illər şerlər yazmaq Mövzular eyni karanlıq ve qaranlıqda azmaq Geriyə baxma, bu gün nən görüyorsun dünəni eyni Şəkkiz il keçdiyim yollarda qoca dilənir eyni Yoxmu zaman? Ya başqa işlə məşğul olmaq Başqa şeydə məşhur olmaq, pul qazanmaq daha çox sıfira sahib olub sevinmək, daha yaxşı geyinmək aha çox foto albom fərqli şəkillərdən gülmək Yəqin ki qeyri ciddi gəlir, bir addım belə dəyişməyib yol Amma ki həyat ciddiyə almaq üçün çox qısa dost Bu gün sabah və artıq sarı yarpaqlar bir az da qaç ürəydən, büküləcək bel və ayaqlar Yat daha çox qadınla, baba ətrini saçlarının qoy yaddaşında gözəl gözlər dərin nəfəs qalsın daha çox şəhərlər gəz, ölkələrdə ol qonaq və tüstü şərab və rəqslər davam etsin həvəs qalsın.. Nəfəs alsın və nəfəs ver zəif ağ ciyərlər uzun illər yığdığımız qızılları xərcləyək və və yetmiş yaşda sonuncu pullara alıb fahişə və onun çirkli kullarından sağlaşaraq getmək.. Yenə çəkir tilovunu zaman. Onun toruna düşən balıqlarıq aman deyin var mı allah, bu qədər çəkdik əziyyət yoxsa balıqlarçün olmur cənnət çəkir uzun tilovunu zaman onun toruna düşən balıqlarıq aman kömək etmir allah, nə qədər çəksək əziyyət Yəqin balıqlarçün olmur cənnət balıklar yaranır ölməməyçün, məqsəd sadəcə üzməydi Anlamadan dünyayı, sevgini, ruhu Onlar sadəcə sümükdən və ətdəndir, ölümləri torda Boğulur quruda və dadlı şam yeməyi olur ağaclar da kəsilməyçün, odun olmaqçün, ölmək Görəsən insanın var mı bir taleyi ya əfsanə Nağıllardı, bütün müqəddəs kitablar susur və Tanrı susur olduğuna inanırıq sözünə ancaq alimlərin Mənim dinim qoca çinar düşüncələr Mənim sirrim pərdəni açmışam çılpaq pəncərə

Mənsə iblis və tanrı arasında qoymadan fərq Hər birinin dinləməy və sonda çıxarmaq nəticə Fəlsəfənlə, ya dərin elmlərlə tapa bilməzsən Yatmaq istəməyi düşünməməklə heç vaxt yata bilməzsən Kənara da ata bilməzsən içindəki suallar Cavablar göy qurşağı həm yaxında həm uzaqda Bəlkə elə bu səhv nələrisə düşünməklə

Həyatın ləzzətlərinə xətt çəkmək üç dörd cümləylə İçimdəki səs

səhvdi bəlkə, yox heç nə müqəddəs və həyat bitir doğulub, çoxalıb, ölməklə Bəli Zaman nədir axı bu zaman? Bəlkə də biz bu sualın cavabını heç vaxt tapa bilməyəcəyik. Bax Qaraqan burda nə deyir həyatın ləzzətlərinə xətt çəkmək 3 4 cümləylə. İçimdəki səs səhvdi bəlkə yoxdu heçnə müqəddəs. Və həyat bitir doğulub çoxalıb ölməklə. Görəsən biz nə vaxt öləcəyik? Sözsüz ki bir gün olacaq amma hansı gün onu artıq yaşayıb görəcəyik. Və mən deyərdim ki o hal yeganə haldır ki yaşamasan dərk edə bilməzsən. Və O hal yeganə haldır ki, bilmədən deyil, bilə-bilə yaşayırsan. Məsuliyyəti qəbul edirsən. Özünlə yalan danışmırsan. Və bəlkə də məhz o zaman balıq olmaqdan çıxıb, tilovu öz əlinə alırsan.

14.10.2025

Varmı Allah Görəsən

Varmı Allah görəsən ? Varsa da görmək gərək deyilmi ? Yəni bir şey var və o şey var gerçəkdən də. Amma bu məsələ çox mənasız yerlərə gedib çıxır. Bax deyirlər ki Allah, nədir də bu Allah. Kimdir ? Nədir ? Nəçidir ? Yox əgər zatən varsa da yoxsa da artıq onun mənim üçün bir mənası qalmır, qalmayıb. Düzü mənə görə saxta müsəlman olmaqdansa heç olmamaq daha yaxşıdır. Nəysə, Bax bu qədər insan niyə var ? Bu sualın cavabını bilmədiyim ya da cavabını öyrənmək üçün vermədim. Bəzi suallar olur ki cavabını almasan da sualdır. Bilirəm bəlkə biraz mənasız oldu ama heçnə olmaz. Bax oturmuşam daşın üstündə evə getmək üçün avtobus gözləyirəm. Niyə ətrafa baxırsan ? Nə düşünürsən baxıb ? Bax dost sən bəlkə də xəstə deyilsən. Özün dediyin üçün xəstəymiş kimi hiss edirsən. Bəs onda qarşıma çıxan şeylər başıma gələn hadisələr? Hə onları da sizin Allahınız edir ? Bəlkə də . Niyə edir bəs. Bax gözəl bir söz var mən doğulanda mənə seçim haqqı verməyən Allah əgər varsa, məni sorğulaya bilməz. Nə də ki məndən qeyri ixtiyari şəkildə həyatıma müdaxilə edə bilməz. Bəlkə səhv deyirəm ? Xoşbəxt ikən bir insanı bədbəxt edən Allah necə mərhəmətli ola bilir ? Elədi ki özü özünü səhv çıxarmış olur. Bəzi axmaq insanlar da elə bilir ki mən onun yerini doldurmaq istəyirəm ya dərdim təki biri məni sevsindi falan filan. Xeyr. Məsələ burasındadır ki mən xoşbəxt olduğum zamanda məni bədbəxt edən Allah ki inanmıram artıq ona, və ehtiyacım da yoxdur. Başıma nə gətirir gətirsin. Əgər hər şeyi idarə edə biləcək gücdədirsə niyə mənim ona inanmamağımın qarşısını almır ? Hə bu çünki başı başına yalandan ibarətdir. indi kim inanır inansın. Hə bir də mən o bəzi axmaqlar kimi bu olmadısa daha gözəli olacaq kimi fikirlərə qapılmağı sevmirəm. Olurdusa elə bu olardı da. İndi başlayacaq bəzi müsəlmanlar ki Allah'a baş qaldırırsan nə bilim nə. Yəni hələ tam varlığı bəlli olmayan deyə inanır özləri. Məni də yargılayırlar. Məni mənim əlimdəki ilə sınadısa o əgər belədirsə. Mən də onu özüylə baş başa buraxıram demirlər onun bizə ehtiyacı yoxdur falan. Olmasın o ehtiyacı. Başıma pis birşeymi gətirəcək. İnan mənə bunlardan sonra gülməli olardı hər şey. Lap bir çox şey. Çünki aciz insan ondan kömək istəyir. Və mənsə acizliyin zincirini qırmışam

artıq. Kiminə görə həyatın sonu olan ölüm belə gəlsə başıma ki bir gün gələcək. O zaman belə heyfislənmədən öləcəm.. Və bəli həyat davam edir. Müəyyən bir müddətlik düşüncələrin qarışması olur və sonra geri gəlir. Və düşünürəm ki bu olmalıdır. Bu olmasa biz niyə insan olaq ki. Elə deyilmi. Ancaq bu fikirlərin sonuna qədər arxasındayam. İnancsız biri olmaq xoşbəxt edir insanı. Heç bir tələbi olmadan, kiminsə qarşısında öhdəliyi olmadan yaşamaq. Bəli həyatı sevin, özünüzü sevin ;)

25.11.2025

Epiloq

Bura qədər gəlibsənsə,deməli oxumusan.Bu kitab sənə dərs vermək üçün yazılmadı. Sadəcə yoldaş oldu. Burada yazılanların heç biri tam doğru deyil, amma tam yalan da deyil. Bu kitabın sonunda böyük nəticə yoxdur. Çünki həyat da nəticə ilə bitmir. Mən artıq susuram. Kitabı bağla, amma düşüncəni yox. Söz növbəsi sənindir. Unutma başlanğıcda söz var idi..

26.11.2025

Ölçü: 135x205 mm
Cild: yumşaq
Çapa imzalandı: 19.01.2025